# İşğaldan azad olunan ərazilər yenidən qurulmaqla tarixi ədalət bərpa edilir

***Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il – 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq...***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



***Ermənistan silahlı qüvvələrinin 30 ilə yaxın müddətdə işğal altında saxladığı Qarabağ və Şərqi Zəngəzurda düşmən tərəfindən xalqımıza məxsus tarix və mədəniyyət abidələri vandalizmə məruz qalıb, yerlə-yeksan olunub, bir qismi isə saxtalaşdırılıb, erməniləşdirilib. Müqəddəs ocaqlarda inək, donuz saxlanılıb. Bununla bütün müsəlman aləmi təhqir edilib. Yaşıllıqlar doğranıb. Təbii sərvətlər Ermənistana daşınıb. Düşmən ölkə işğal dövründə yaşayış məntəqələrimizdə qanunsuz məskunlaşma aparıb.***

Əlbəttə, vandalizm, barbarlıq məqsədli şəkildə törədilib. İşğalçı dövlət Qarabağ və ətraf rayonlarda azərbaycanlılara aid tarixi mirasları viran qoymaqla xalqımızın bu ərazidəki mədəni kimliyini itirmək, bu torpaqlarda bütün milli izlərimizi silmək məqsədi güdüb.

Prezident İlham Əliyev avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəki çıxışında bununla bağlı deyib: "Müharibədən sonra bütün dünya erməni vəhşiliyinin yırtıcı sifətini gördü. Çünki müharibəyə qədər işğal dövründə Ermənistan tərəfi o vaxt işğal edilmiş torpaqlara heç kimi buraxmırdı. Eyni zamanda, bu məsələ ilə məşğul olan vasitəçilər də oraya getməyə o qədər can atmırdılar. Halbuki qanunsuz məskunlaşma hərbi cinayət sayılır. Əgər 1990-cı illərin əvvəllərində Ermənistan bu qanunsuz məskunlaşmanı gizlin şəkildə edirdisə, son vaxtlar o qədər azğınlaşmışdılar ki, bunu açıq şəkildə edirdilər. İndi yada salmaq lazımdır, müharibədən əvvəl onların televiziyalarında hansı reportajlar gedirdi. Xaricdən - Suriyadan, Livandan gəlmiş ermənilər Şuşa şəhərində müsahibələr verirdilər. Deyirdilər ki, bəli, biz gəlmişik buraya. Bura Ermənistan torpağıdır. Biz burada yaşayırıq. Bunları təbliğ edirdi, hərbi cinayəti təbliğ edirdi. Onlara bizdən başqa söz deyən yox idi. Minsk qrupu onlara bir söz demirdi. Qanunsuz məskunlaşma tək Şuşada getmirdi, Cəbrayılda da gedirdi, Zəngilanda da gedirdi, Kəlbəcərdə də, Laçında da. Təkcə Ağdam və Füzulidə məskunlaşma getmirdi. Çünki orda heç nə yox idi, hər şeyi dağıdıblar, bütün şəhər və kəndlərimizi yerlə-yeksan ediblər... Bizim uğurlu əməliyyatlarımız buna son qoydu. Ancaq bu gün qeyd etdiyim kimi, bütün dünya erməni vəhşiliyini gördü. Görür ki, ermənilər bizim məscidlərimizi dağıdıblar, 60-dan çox məscid dağıdılıb. Ermənilər bizim məscidlərimizdə inək, donuz saxlayıblar. Bu, bütün müsəlman aləminə təhqirdir...".

Bu gün Azərbaycan Vətən müharibəsində olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurun bərpasında da gücünü bütün dünyaya nümayiş etdirir. İşğaldan azad edilən ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri sürətlə həyata keçirilir, Ermənistanın işğalı zamanı yerlə bir edilən şəhər və kəndlərimiz, dağıdılan tarixi, mədəni və dini irsimiz bərpa olunur.

Avtomobil yollarının tikintisinə xüsusi önəm verilir. Hazırda Xudafərin-Qubadlı-Laçın, Füzuli-Hadrut, Bərdə-Ağdam, Şükürbəyli-Cəbrayıl-Hadrut, Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası və Füzulidən Şuşaya - Zəfər yolunun tikintisi sürətlə aparılır.

"Zəfər yolu"nun 2021-ci ilin sentyabrın sonu-oktabrın əvvəlində istifadəyə verilməsi nəzərdə tutulur. Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 149-cu kilometrliyindəki Əhmədbəyli kəndindən başlayır və Füzuli şəhəri, Böyük Tağlar kəndi, Topxana meşəsi, Daşaltı kəndindən keçərək Şuşa şəhərinə çatır.

Şuşa şəhərinə 2-ci avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 157-ci kilometrliyindən başlayır. Magistralın üzərində körpü və tunellərin tikilməsi nəticəsində "Zəfər yolu" ilə müqayisədə 20,3 kilometr qısa olacağı, 2024-cü ildə başa çatdırılacağı nəzərdə tutulub.

Kəlbəcər və Laçına çəkilən yollar da mühüm önəm daşıyır. Prezident İlham Əliyev bununla bağlı deyib: "Kəlbəcər, Laçın rayonlarında hərbi əhəmiyyətli yollar çəkilir. Bu yolların ümumi uzunluğu 700 kilometrə qədərdir. Çünki orada yol olmayıb, sərhədə gedən istiqamətdə yol olmayıb. Orada qar may ayında əriyib. İndi qış gələnə qədər - qış da oktyabr ayında gələcək, - oktyabr ayına qədər biz orada nə qədər yol çəkməliyik və bunu edirik. Bu, böyükmiqyaslı işdir, mətbuatda çox da işıqlandırılmır. Təbiidir, amma strateji nöqteyi-nəzərdən və sərhəddə öz mövqelərimizi möhkəmləndirmək nöqteyi-nəzərindən bu yolların çox böyük əhəmiyyəti var".

Xatırladaq ki, Toğana-Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın, Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun tikintisi də sürətlə aparılır.

Hazırda Naxçıvan Muxtar Respublikasına çıxışa imkan verən Zəngəzur nəqliyyat dəhlizinin Azərbaycan tərəfindəki Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd hissəsinin layihəsi hazırlanır və paralel olaraq tikintisi aparılır. Avtomobil yolunun 2024-ci ildə başa çatdırılması nəzərdə tutulur.

Ümumiyyətlə, Qarabağda və Şərqi Zəngəzurda inşa edilən avtomobil yolları sırasında Zəfər yolu 101 kilometr, Əhmədbəyli- Füzuli-Şuşa yolu 81,6 kilometr, Toğanalı-Kəlbəcər -İstisu yolu 80,7 kilometr, Kəlbəcər -Laçın yolu 72,3 kilometr, Əhmədbəyli- Horadiz-Mincivan- Ağbənd yolu 123,8 kilometr, Talış-Tapqaraqoyunlu-Qaşaltı yolu 22 kilometr, Xudafərin- Qubadlı-Laçın yolu 83 kilometr, Şükürbəyli-Cəbrayıl-Hadrut yolu 43 kilometr, Füzuli-Hadrut yolu 13 kilometr, Bərdə-Ağdam yolu 45 kilometr təşkil edəcək.

Bütün bunlarla bərabər, Böyük Qayıdış proqramı çərçivəsində müasir texnologiyalara əsaslanan "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrinin icrası da diqqətdə saxlanılır.

Prezident İlham Əliyev bu il mayın 3-də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, ölkəmizin işğaldan azad edilmiş ərazilərində "Yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılıb.

Dövlətimizin başçısı tərəfindən bu il aprelin 27-də Zəngilanın 1-ci Ağalı, 2-ci Ağalı, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməli qoyulub. Layihənin icrası, əsasən, yaşayış, istehsal, sosial xidmətlər, "Ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələrini əhatə edən 5 komponent üzrə aparılacaq. Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurulacaq. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər.

İşğaldan azad olunmuş ərazilərimizin bərpasında məhz "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının tətbiqinin olduqca böyük əhəmiyyəti var. Bununla, Azərbaycan dövləti bütün dünyaya həyata keçirdiyi siyasətin həm də humanist, sülhsevər, qurucu və yüksək mədəni-əxlaqi mahiyyətini nümayiş etdirir.

Bu ilin sonuna qədər azad edilən torpaqlarda - həm Qarabağda, həm Şərqi Zəngəzurda, eyni zamanda, yeni elektrik xətləri, həmçinin ötürücü xətlər çəkiləcək, transformatorlar, yarımstansiyalar qurulacaq, elektrik stansiyaları istifadəyə veriləcək. Kəlbəcər və Laçın rayonlarında isə məskunlaşan ermənilərin həmin əraziləri möhlətverilmə müddəti başa çatandan sonra tərk edərkən, yandırıb dağıtdıqları 12 su elektrik stansiyası yenidən bərpa olunacaq. Dövlətimizin başçısının vurğuladığı kimi, bu, əsas məsələdir. Çünki işğaldan azad edilən ərazilərdə energetika sistemi yaradılmasa, heç bir inkişafdan söhbət gedə bilməz. İlin sonuna qədər bu istiqamətdə işlərin yekunlaşdırılması planlaşdırılır.

Hazırda "Azərenerji" tərəfindən Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının hər birində 110/35/10 kV-luq yarımstansiyalar tikilir. Səhmdar Cəmiyyətin məlumatında bildirilir ki, bunun üçün "Şükürbəyli" yarımstansiyasından 40 kilometr məsafədə yeni tikilən "Cəbrayıl" yarımstansiyasına, Cəbrayıldan 45 kilometr məsafədə yeni tikilən "Qubadlı" yarımstansiyasına, Qubadlıdan 29 kilometr məsafədə yeni tikilən "Zəngilan" yarımstansiyasına 110 kV-luq ikidövrəli elektrik verilişi xətti çəkilir.

Hər üç yarımstansiyada 110 kV-luq açıq, 35 və 10 kV-luq qapalı paylayıcı qurğular quraşdırılmaqla yeni inzibati bina inşa edilir. Yarımstansiyalar məsafədən idarə olunmaqla dispetçer idarəetmə sisteminə qoşulacaq. "Cəbrayıl" yarımstansiyasında artıq işlər tamamlanmaqdadır.

"Qubadlı" və "Zəngilan"da da işlərin çox hissəsi görülüb və yaxın vaxtlarda yekunlaşacaq.

Bundan başqa, hazırda Ağdam rayonunda da 110/35/10 kV-luq iki yarımstansiya tikilir. "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi sürətlə davam etdirilir və sözügedən yarımstansiyalara "Xındırıstan" yarımstansiyasından 40 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilir.

Qeyd edək ki, indiyədək "Azərenerji" tərəfindən Füzulidən Şuşaya 75 kilometr, Daşkəsəndən isə Kəlbəcərə 70 kilometr məsafədə 110 kV-luq ikidövrəli elektrik verilişi xətti çəkilib və 110/35/10 kV-luq "Şuşa" və "Kəlbəcər" yarımstansiyaları tikilərək istismara verilib.

Həmçinin Füzuli şəhərində 110/35/10 kV-luq "Füzuli" yarımstansiyası tikilib, eyni zamanda Füzuli rayonundakı "Şükürbəyli" yarımstansiyası genişləndirilərək tam yenidən qurulub.

Prezident İlham Əliyev avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəki çıxışında azad edilmiş torpaqlarda bu gün bütün bərpa işlərinin Azərbaycanın vəsaiti hesabına icra olunduğunu, Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqramın bir neçə il ərzində həyata keçiriləcəyini bildirib. "Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur",-deyə dövlətimizin başçısı vurğulayıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***